**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MEHRİBAN OQTAY qızı MÖVLAMOVA**

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA MƏHƏMMƏD FÜZULİ OBRAZI

5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi  Azərbaycan Dillər Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Fəridə Ramiz qızı Səfiyeva,**<br>filologiya üzrə elmlər doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Yaşar Əliqulu oğlu Qasımov,**<br>filologiya üzrə elmlər doktoru |
| | **Laləzar İkram qızı Əlizadə,**<br>filologiya üzrə fəlsəfə doktoru |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası** |

Müdafiə "____ "_________ 2018-ci il  saat "___" da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə  doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az-1143, Bakı şəhəri, H. Cavid prospekti 115, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat  " ____ "___________  2018-ci ildə göndərilmişdir.

| | |
|---|---|
| **Dissertasiya Şurasının Elmi katibi:** | **İsmixan Məhəmməd oğlu Osmanlı,**<br>filologiya üzrə fəlsəfə doktoru |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın dahi şairi Məhəmməd Füzulinin yaradıcılığı ədəbiyyatşünaslığımızda geniş şəkildə öyrənilmişdir. Filoloji fikrin füzulişünaslıq sahəsində sənətkarın ədəbi irsində öz əksini tapan bir çox problemlər araşdırılmışdır. Füzulinin həyatı, bioqrafiyası ilə bağlı məsələlər, ayrı-ayrı əsərlərinin öyrənilməsi şair haqqında kifayət qədər dolğun elmi təəssürat yaratmışdır. Füzuli şəxsiyyətinin bədii obraz kimi canlandırılması da mühüm əhəmiyyətə malikdir. Ədəbi-tarixi şəxsiyyətlərin bədii nümunələrdə təqdimi həm nəzəri aspektdə mühüm məsələlərin öyrənilməsinə şərait yaradır, həm də şairin obrazının tarixi və bədii səciyyəsi arasındakı münasibətləri ifadə etmək baxımından önəmlidir.

Füzulinin bədii obrazı ilk dəfə olaraq elə şairin özü tərəfindən yaradılmışdır. Şairin ədəbi-fəlsəfi irsində müəllif obrazı pərakəndə şəkildə yaradıcılıq nümunələrinə səpələnmişdir. Obrazın bədii səciyyəsindəki avtobioqrafik cizgilər daha çox Füzulinin qəsidələrindən, psixoloji məqamlar qəzəllərindən, həyatının önəmli tarixlərinin təsviri isə dibaçələrindən bəhrələnmişdir.

XX əsr Azərbaycan ədəbiyyatında M.Füzuli obrazının yaradılması iki əsas mənbədən qaynaqlanırdı: birinci, şairin zəngin bədii irsi, mütəfəkkir ədibin qəhrəman konsepsiyası və söz sənəti mühüm amil kimi diqqəti cəlb edirdi; ikinci, ədəbiyyatşünaslıq materialları obrazın dolğunlaşmasında müstəsna əhəmiyyətə malik olmuşdur.

Şairin obrazını özündə ehtiva edən bədii əsərlərə, eləcə də, həmin ədəbi örnəklər haqqında irəli sürülmüş elmi mülahizələrə obyektiv ədəbiyyatşünas mövqedən yanaşmaqla bir çox əhəmiyyətli qənaətləri əldə etmək mümkündür. Füzuli obrazının bədii yaradıcılıqda əksi mövzusu dünya ədəbiyyatındakı şair obrazları ilə müqayisəli tədqiqə, şairin real avtobioqrafiyası və obrazı yaradan müəllif təxəyyülü fonunda oxşar və fərqli məqamları araşdırmağa, habelə müxtəlif qələmlərin məhsulu olan eyni obrazın müqayisəli təhlilinə imkan verir.

Məlumdur ki, mövzusu tarixdən götürülmüş bədii nümunələrdə real şəxsiyyət, xüsusilə, yaradıcı insan bir obraz kimi konkret estetik idealın daşıyıcısı funksiyasını yerinə yetirir. Azərbaycan ədəbiyyatında tarixi obraz, sənətkar və zaman məsələsi daim aktual olmuşdur. Sözügedən kontekstdə Füzuli obrazını keçmişin və müasirliyin bədii sintezi kimi qəbul etməliyik. Füzuli dövrünə və şəxsiyyətinə müraciət edən müəlliflər real ədəbi-tarixi faktı estetik amillər vasitəsilə aşkara çıxarmışlar. Aydındır ki, ilk motivin keyfiyyətcə yenisi ilə əvəz olunması problemi bu tip əsərlər

üçün məqbul sayılmır. Müəlliflərin, demək olar ki, hamısı Füzuli həyatının motivlərinə sadiq qalaraq cüzi dəyişikliklər etmiş və vahid ideyanın sadəcə olaraq yaradıcı üsulla formasını dəyişmişlər. Ədəbiyyatımızda lirik, epik və dramatik növdə yazılmış müxtəlif əsərlərdə Füzuli obrazına təsadüf olunmaqdadır. Həmin əsərlərin tədqiqi dahi mütəfəkkirin şəxsiyyəti, əsərlərindən boylanan bədii şair məni, eyni zamanda, dünya ədəbiyyatında oxşar mövqedə dayanan obrazlar ilə müqayisəli şəkildə öyrənildikdə əhəmiyyətli nəticələr verir.

Söz sənəti, bütövlükdə, obyektiv varlıqlara subyektiv münasibətin ifadəsidir. Ədibin hiss və həyəcanları nə qədər subyektivdirsə, əsər bir o qədər orijinal və qüvvətli alınır. Akademik Rafael Hüseynovun təbirincə desək, "uşaq öz atasına oxşadığı kimi, Azərbaycan poeziyası da Füzuliyə o qədər bənzəyir"[1]. Füzuliyə həsr olunmuş bütün ədəbi nümunələrin bədii nüvəsini, hərəkətverici qüvvəsini, ilk növbədə, dahi şairin yaradıcılığı təşkil edir. Müəlliflər şairi usanmaz aşiq kimi təsvirə çalışanda onun lirik qəzəllərinə və "Leyli və Məcnun" poemasına, dövrün və zamanın nöqsanlarını əks etdirən şəffaf ayna tək göstərmək istədikdə "Şikayətnamə"sinə, varlıq haqqında düşünən, qocaman filosof şəklində təsvir etdikdə isə "Hədiqətüs-süəda"sına istinad edərək, şairin elə özünün yaratdığı məcazlardan istifadə etmişlər. Füzuli öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının elə bir zirvəsinə çatmışdır ki, ondan daha yüksəyə qalxmaq, onunla tən bərabərdə dayanmaq qeyri-mümükündür. Şairin ədəbi-fəlsəfi irsinin tədqiqi ilə yanaşı, onun ədəbiyyatımızdakı bədii obrazının öyrənilməsi də əhəmiyyətli və aktualdır. Bununla şairin ədəbi portreti və yaradıcı şəxsiyyətini müqayisə etmək, filoloji fikrimizdə bu sahədə olan boşluğu müəyyən qədər doldurmaq mümkündür.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti bədii ədəbiyyatımızda XVI yüzil və sonrakı dövrlər Azərbyacan ədəbiyatında aparıcı yer tutan dahi şair Məhəmməd Füzulinin həyatı, bioqrafiyası, dövrü və poetik irsi əsasında yaradılmış M.Füzuli obrazıdır.

Tədqiqat işinin predmetini isə yazılma dövründən və ədəbi növündən asılı olmayaraq Füzuliyə həsr olunmuş bütün bədii əsərlər, müxtəlif dövrlərdə ədəbiyyatşünaslıqda mütəfəkkir ədib haqqında yazılmış məqalə və monumental monoqrafiyalar təşkil edir. Azərbaycan və dünya ədəbiyyatında yaradıcı insan obrazına həsr olunmuş bir sıra bədii və elmi əsərlər də işin predmeti sırasında qeyd olunmalıdır.

[1]Hüseynov R. Yoxdan var. Bakı: Elm və təhsil, 2016, s.157.

**Mövzunun işlənmə dərəcəsi.** Məhəmməd Füzuli yaradıcılığı hələ şairin sağlığında dövrünün məşhur təzkirəçiləri tərəfindən araşdırılmışdır. Qəstəmonulu Lətifinin "Məşairuş-şüəras" əsərindən başlamış M.Tərbiyətin "Daneşməndane-Azərbaycan" təzkirəsinədək Füzuli şəxsiyyəti müxtəlif təzkirələrdə əks olunmuşdur. Əslində, sözügedən təzkirələrdə təqdim edilən məlumatlar şairin obrazının ilkin qaynaqları kimi səciyyələndirilə bilər. Çünki obrazın əsasını təşkil edən məsələlər – şairin atasının və nəslinin kimlərdən olması, gənclik və ahıl çağlarını hansı mühitdə keçirməsi, yaradıcılığına təsir etmiş sosial-siyasi və ruhi-sentemental məqamlar bu qaynaqlarda öz ifadəsini tapmışdır.

Azərbaycan ədəbiyyatşünaslığında Füzuli irsinin elmi-nəzəri araşdırılmasında İsmayıl Hikmət, Salman Mümtaz, Bəkir Çobanzadə, Əli bəy Hüseynzadə kimi alimlərin rolu danılmazdır. Füzuli yaradıcılığının ilk sistemli və ardıcıl şəkildə tədqiqi isə Həmid Araslının adı ilə bağlıdır. "Böyük Azərbaycan şairi Füzuli" monoqrafiyası şairin həyatı və yaradıcılığı haqqında elmə bir sıra yeni töhfələr vermişdir. Mir Cəlal Paşayevin 1940-cı ildə çap etdirdiyi "Füzulinin poetik xüsusiyyətləri" və 1956-cı ildə nəşr olunmuş "Füzuli sənətkarlığı" monoqrafik tədqiqat əsərləri füzulişünaslıq üçün dəyərli elmi nümunələrdir. Məmməd Cəfərin ümumşərq kontekstində Füzuli mövqeyinin araşdırılmasına həsr olunan "Füzuli düşünür", Mirzəağa Quluzadənin şairin lirik nümunələrinin, ideya-sənət ecazkarlığının təhlilinin ön planda olduğu "Füzulinin lirikası", Fuad Qasımzadənin Füzuli dövrünün fəlsəfi-ictimai problemləri fonunda şairin yaradıcılıq laboratoriyası üzərində apardığı tədqiqatların toplandığı "Qəm karvanı, yaxud zülmətdə nur" monumental monoqrafiyalarında şairin ədəbiyyatşünaslıqda yaradılmış obrazları diqqəti cəlb edir.

Bədii obraz səviyyəsində isə Məhəmməd Füzuli obrazı Gülşən Əliyevanın "Çağdaş Azərbaycan lirikasında Füzuli ənənələri" dissertasiyasında, Səadət Məmmədəliyevanın "Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuli obrazı" və Vüqar Əhmədin "Nəsrimizdə Füzuli obrazı" adlı məqalələrində araşdırılmışdır. G.Əliyeva dissertasiya işinin mövzusuna uyğun olaraq yalnız çağdaş şairlərin lirikası əsasında tədqiqat aparmışdır. S.Məmmədəliyevanın məqaləsi "Azərbaycan ədəbiyyatında Füzuli obrazı" adlandırılsa da, burada təhlil sadəcə bir əsər – "Eşq sultanı" romanı üzərində təqdim olunmuşdur. Sözügedən məqalədə obyekt Füzuli obrazından daha çox, əsərin ümumi süjet və kompozisiyasıdır.Vüqar Əhmədin araşdırması isə O.Salamzadənin "Sevgi iztirabı" romanı üzərində aparılmışdır.

Füzuliyə həsr edilmiş ədəbi əsərlərin sistemləşdirilərək şairin biblioqrafiyasına daxil edilməsi sahəsində Fazil Məmmədovun əməyi böyükdür. 1996-cı ildə çap olunmuş “Məhəmməd Füzuli əsərlərinin nəşri” kitabının “Məhəmməd Füzuli bədii ədəbiyyatda” adlanan bölməsində şairə ithaf olunmuş bədii nümunələrin siyahısı verilmişdir.

Akademik İsa Həbibbəylinin “Məmməd Araz zirvəsi”, G.Əliyeva-nın “Bəxtiyarın sənət aləmi və Füzuli qəmi” məqalələrində və N.Cabbarlının “Abay Dağlının mühacirət dövrü yaradıcılığı”, R.Yusifoğlu-nun “Azərbaycan poeması; axtarışlar və prespektivlər” monoqrafiyalarında da Füzuli obrazı tədqiqata cəlb olunmuşdur. Qeyd olunmuş tədqiqat əsərləri Füzuli obrazının təhlili baxımından qiymətlidir. Lakin həmin araşdırmaların əsas obyekti Məhəmməd Füzuli obrazı olmadığından şairin obrazının təhlili daha çox təsviri xarakter daşıyır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi müxtəlif janrlarda yazılmış əsərlərdə Füzuli obrazını sistemli şəkildə tədqiq edərək, Azərbaycan ədəbiyyatındakı şair obrazları içərisində həmin obrazın mövqeyini elmi-nəzəri cəhətdən dəyərləndirməkdən ibarətdir. Yəni əsrlərdən bəri bizə ədəbi-tarixi sima kimi çox yaxşı tanış olan Füzulini yeni aspektdə, adına yazılmış əsərlərdəki baş obraz səviyyəsində tədqiq etmək dissetasiya işinin əsas məqsədidir. Sözügedən məqsəd şairin bədii əksini tapdığı bütün əsərləri tədqiqatın hədəfinə çevirmişdir. Bununla əlaqədar dissertasiya işində bir sıra vəzifələr qoyulmuşdur:

– Ədəbiyyatımızda Füzuli obrazına müraciətin intensivliyinin səbəblərini müəyyən etmək üçün şairin bədii obrazı yaradılmış bütün əsərləri tədqiqata cəlb etmək;

– Azərbaycan ədəbiyyatında artıq ənənə halını almış “tarixi obrazlar” məsələsi haqqındakı müxtəlif fikirlərə münasibət bildirmək və həmin silsilədən, məhz, “şair” obrazının mövqeyini müəyyənləşdirmək;

– Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuli obrazının yerini dəyərləndirmək və onun hansı səviyyədə yaradıcı təsir gücünə malik olmasını aşkarlamaq;

– ədəbiyyatda təsvir olunmuş Füzuli obrazının arxetipik cizgilərini araşdırmaq. Onu ədəbi arxetipin növü, ənənəvi arxetiplər sırasına daxil olmuş Məcnunun dialektik əkizi kimi təhlil etmək;

– tarixi gerçəklik və bədii reallığı Füzuli obrazının ümdə xüsusiyyəti olaraq araşdırmaq. Şairin avtobioqrafiyası haqqında olan materialları yaradılan obrazlarla müqayisə etmək;

– Məhəmməd Füzuli obrazının bədii portreti ilə “gerçək” avtoportreti arasındakı əlaqəni araşdırmaq. Bədii portretin Aşıq Çələbi

təzkirəsində, eləcə də, Əzim Əzimzadə yaradıcılığındakı Füzuli portretləri ilə uyğunluq dərəcəsini müəyyən etmək;

– XX əsr Azərbaycan ədəbiyyatındakı Füzuli obrazı haqqında ədəbi tənqiddə öz əksini tapmış mülahizələri müqayisəli formada təhlil etmək;

– lirik növdə yaradılmış obrazın məziyyətlərini araşdırmaq;

– dünya ədəbiyyatında yaradıcı insan obrazı konsepsiyasını Azərbaycan söz sənətindəki Füzuli obrazının fonunda analiz etmək;

– mükəmməl şair obrazının meyarlarını göstərməklə Füzuli obrazının məziyyət və çatışmazlıqlarını önə çəkmək;

– Məhəmməd Füzuli obrazının səciyyəsində folklordan qaynaqlanan məqamları araşdırmaq. Obrazın mental model kimi qəbul olunmasının başlıca səbəbi kimi ilkin qaynaqlardakı folklor ünsürlərinin onun mayasında dayanması məsələsini işıqlandırmaq;

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi Füzuli obrazını Azərbaycan ədəbiyyatında sistemli və geniş şəkildə araşdırmaya cəlb edən ilk tədqiqatdır. Burada ədəbiyyatşünaslığımızda mövzunun tədqiqi üçün yeni olan bir sıra məsələlər mövcuddur.

– Füzuli obrazı dünya ədəbiyyatındakı şair obrazları ilə müqayisədə araşdırılır, fərqli və ümumi cəhətlər meydana çıxarılır, obrazın bədii əksindəki qüsurlu məsələlər şərh olunur.

– Ədəbiyyat tariximizin fərqli dövrlərində yazılmış müxtəlif ədəbi növlərdəki əsərlər Füzuli obrazının ifadəsi kontekstində tədqiqata cəlb olunur. Lirika, nəsr və dramaturgiyada obrazın əsas özəllikləri meydana çıxarılır, tarixi fakt və bədii təxəyyül arasındakı münasibətlər təhlil edilir.

– Füzuli obrazının arxetipik cizgiləri bədii nümunələr əsasında təhlil edilir.

– Füzuli obrazını bədii yaradıcılığa gətirən, lakin Füzuli biblioqrafiyasında öz əksini tapmayan bir çox əsərlər sistemləşdirilir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işi tarixi-müqayisəli metod əsasında yazılmışdır. Burada tarixi ardıcıllıq, elmi sistemlilik və məntiqlilik prinsipləri əsas götürülmüşdür. Elmi-nəzəri və metodoloji əsaslar mövzunun ədəbi-tarixi istiqamətdə araşdırılmasında öz əksini tapmışdır. Azərbaycan ədəbiyyatşünaslığının, filoloji fikrinin elmi nəticələri, qoyulmuş problemlərlə bağlı mülahizələr tədqiqatın nəzəri əsası kimi çıxış edir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya ədəbiyyatımızda Füzuli obrazının öyrənilməsi, tarixi şəxsiyyət və bədii qəhrəman probleminin bir sıra məsələlərinin araşdırılmasında nəzəri əhəmiyyətə malikdir. Dissertasiyanın əsas mülahizə və qənaətləri mövzu ilə

əlaqədar yazılan tədqiqatlar üçün faydalı ola bilər. Tədqiqat işi çağdaş Azərbaycan ədəbiyyatındakı sənətkar və zaman problemi ilə əlaqədar mövzularda, habelə klassik irsin müasir ədəbiyyata nüfuzu məsələlərində, ali məktəblərin filologiya fakültələrində ixtisas və xüsusi kurslarda "tarixi obraz" problemlərinin tədrisində dərs vəsaiti kimi istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" (indiki Azərbaycan ədəbiyyatı) kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları tezislər və məqalələr şəklində respublika və xarici jurnallarda, elmi məcmuələrdə, konfrans və simpozium materiallarında əksini tapmışdır.

**Tədqiqat işinin quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış,qarşıya qoyulan əsas məqsəd və vəzifələr, mövzunun öyrənilmə səviyyəsi, elmi yeniliyi göstərlmiş, nəzəri-metodoloji əsasları, aprobasiyası açıqlanmışdır.

Dissertasiyanın **"Məhəmməd Füzuli obrazı mədəni fenomen kimi"** adlanan birinci fəsli dörd yarımfəsildən ibarətdir. "**Tarixi gerçəklik və bədii reallıq"** adlı birinci yarımfəsildə XVI əsr Azərbaycan ədəbiyyatının dahi siması, mütəfəkkir şəxsiyyət M.Füzuli haqqında ədəbi-tarixi mənbələrdə öz əksini tapmış faktların, şairin avtobioqrafik məlumatlarının bədii əsərlərdəki ifadəsi məsələsi araşdırılmışdır.

Azərbaycan ədəbiyyatı öz tarixi köklərinə, klassik ənənələrinə sadiqdir. Tarixi əsərlərdə yaradıcı şəxsiyyətlərin bədii obrazlarının yaradılması bir növ ənənə halını almış, tarixi mövzuya müraciət edən ədiblərin demək olar ki, hamısı öz sənət sələflərinin də şəninə əsər yaratmışlar. Məhəmməd Füzuli şəxsiyyətini bədii əsərin baş obrazına çevirmək ilk baxışdan göründüyü qədər də asan məsələ deyildir. Çünki Füzuli öz əsərlərində Xaqani və Nizami kimi tərcümeyi-halını verməmiş, bununla da şairin həyatı ilə bağlı gerçək faktlar keçmişin dumanları içində örtülü qalmışdır. Tarixi obraza yaradıcı yanaşan müəlliflər üçün bu gizli məqamlar süjetə əlavə xətlər daxil etmək və yazıçı təxəyyülünün fərqli təzahür formalarını göstərmək imkanı vermişdir. Lakin, eyni zamanda, məlumat azlığı bəzi müəlliflərin hədsiz təkrarçılığına yol açmışdır.

Füzuli haqqında yazılmış əsərləri üç qismə bölmək mümkündür:

1. Şairin həyatı haqqında elmi faktları və rəvayətləri dərindən araşdıraraq onu bədii ədəbiyyat nümunəsinə çevirən əsərlər. 2. Şairin

yaradıcılığını, xüsusən də "Leyli və Məcnun" poemasını əldə rəhbər tutaraq qəhrəmanının Füzuli olduğu "Leyli və Məcnun"lar. 3. Heç bir tarixi əsası olmayan, o cümlədən, Füzulinin heç bir əsərindən təsirlənmədən yaranan müstəqil əsərlər. Birinci qismə B.Vahabzadənin "Şəbi-hicran", Ə.Cəfərzadənin "Eşq sultanı", ikinciyə isə M.Seyidzadənin "Şairin gəncliyi", A.Dağlının "Füzuli", O.Salamzadənin "Sevgi iztirabı" əsərlərini daxil edə bilərik. Doğrudur, B.Vahabzadə və Ə.Cəfərzadə də şairin məlum avtobioqrafiyası ilə yanaşı, bədii irsindən də faydalanmışlar. Lakin məxəzlərdəki məlumatlarla ətraflı tanışlıqları əsərlərinin bədii dəyərini xeyli artırmışdır. Bölgünün üçüncü hissəsinə H.Abbaszadənin "Bağdadda bir gecə", N.Əliyevin "Vətən həsrəti", H.İbrahimovun "Müğənni", Ə.Hüseynzadənin "Sən yaşayacaqsan" hekayələrini, R.Rövşənin "Şam", A.Cəmilin "Düşünən heykəl", V.B.Ödərin "Vaqif Bayatlı Önər" adlı əsərini aid edə bilərik.

Füzulinin həyatı ilə bağlı əlimizdə olan məlumatlar, ilk növbədə, şairin, öz dibaçələrindən götürülmüşdür. Tarixi reallığa malik ilkin fakt kimi atasının adının Süleyman olmasını göstərə bilərik. Bu haqda Füzuli özü "Mətləül-etiqad" əsərində xəbər vermişdir. Müqəddimə "Süleyman oğlu Füzuli ləqəbli Məhəmməd"[1] sətirləri ilə başlayır. Sözügedən fakt Füzulinin həyatını uşaqlığından başlayaraq qələmə alan bütün müəlliflərdə təhrif edilmədən verilmişdir. R.Rza "Füzuli" poemasında yazır:

Süleyman kişi öz Laləsilə
Bura uzaq yerdən - Bərşaddan gəlib[2].

O.Salamzadə "Sevgi iztirabı" romanında Süleymanın fəaliyyətini daha geniş təsvir etmiş, onun gənc çağlarını da qələmə almışdır: "Məhəllədə Süleyman üçün əldən gedən qız az deyildi. O, dəvə üstündə məhəlləyə girəndə qızlar tamaşasına dururdular"[3]. Ə.Cəfərzadə də "Eşq sultanı" əsərində Süleyman adlı qayğıkeş ailə başçısı obrazı yaratmışdır: "Əlbəttə, Süleyman onun (Səlminazın -M.M.) heç bir arzusunu ürəyində qoymurdu"[4]. M.İbrahimovun "Əbədi həyat" əsərində də sözügedən fakt tarixi gerçəkliyə əsaslanır.

Füzulinin həyatı ilə bağlı ikinci tarixi fakt isə şairin doğum yerinin bədii əsərlərdə təsviri məsələsidir. Tədqiqatçılardan Ə.Qaraxan,

---

[1]Füzuli M. Mətləül etiqad və ərəbcə qəsidələri. Tərtib edəni: Araslı H. Redaktor: H.Məmmədzadə Bakı: Az. SSR EA, 1958, s. 3.
[2]Rza R. Seçilmiş əsərləri. Beş cilddə, IV cild.Tərtib edəni:Anar. Redaktor: A. Əmrahoğlu. Bakı: Öndər, 2005, s. 156.
[3]Salamzadə O. Sevgi iztirabı. Redaktorlar: X .Cəlilova, E. Salamov. Bakı: Yazıçı, 2003, s. 11.
[4]Cəfərzadə Ə. Eşq sultanı. Ön sözün müəllifi: Vaqif Sultanlı. Bakı: Şirvannəşr, 2005, s. 23.

H.Mazıoğlu, A.Bombaçi, V.Feyzullayeva və başqaları şairin doğum yeri kimi Kərbəlanı göstərmişlər. Onlar şairin fars divanının dibaçəsində yazdığı fikirləri əsas götürmüşlər: “Doğulduğum və yaşadığım yer İraqi-Ərəbdir ki, sultanların kölgəsindən uzaq və sakinlərinin şüursuzluğu üzündən xərabə qalmış bir ölkədir”[1]. Şair yazır:

Ey Füzuli, məskənim çün Kərbəladır, şeirimin
Hörməti hər yerdə vardır, xəlq onun müştaqıdır.
Nə qızıldır, nə gümüş, nə ləlü nə mirvaridir,
Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır[2].

Füzulini bədii obraz kimi əsərlərinə daxil edən ədiblər də, əsasən, şairin həyat və fəaliyyətini Kərbəla ilə bağlayırlar. Ə.Bəndəroğlu Əhdi Bağdadinin təzkirəsinə əsaslanaraq Füzulinin doğum yerini Bayat qəbiləsi ilə əlaqələndirmişdir[3]. Bayatların türk-oğuz tayfalarından biri olması və fərqli ərazilərdə yaşaması Füzuli obrazını yaratmış müəlliflərə şairin soy-kökünü müxtəlif şəkildə göstərmək şansı yaratmışdır. R.Rza əsərində Füzuli haqqında “lap düzü Bərşadın özündən də yox, yanındakı kənddən Bayatdan gəlib”, - deyə yazırdı[4]. O.Salamzadənin “ərəb İraqına Şimali Azərbaycanın Ağcabədi mahalından köçüb gəlmiş bayatlar...”[5], Ə.Cəfərzadənin isə öz qəhrəmanının ata-baba yurdunu “bu Bayat kəndlərindən biri Şamaxıda yerləşirdi. Şamaxı və Göylər arasında gözəl bir təpədə yurd salmışdı bu kənd”[6] şəklində təsvir etməsi həmin fikirlərdən irəli gəlmişdir.

Füzuliyə həsr olunmuş bütün bədii əsərlərin əsas ideyası məhəbbətdir. Şairin ilk sevgisi, müəlliminin qızına aşiq olması tarixi və ədəbi əsərlərdə müxtəlif şəkildə təqdim edilmişdir. B.Vahabzadənin “Şəbi-hicran” poemasında Məhəmmədin ərəb dili müəlliminin qızına aşiq olması təsvir olunmuşdur. Ə.Cəfərzadə də “Eşq sultanı”nda kolliziyanın bir bucağını həmin məsələ üzərində qurmuşdur. Müəllimin adını Rəhmətullah olaraq verməsi, şübhəsiz ki, tarixi fərziyyəyə əsaslanır. M.M.Seyidzadə “Şairin gəncliyi” adlı pyesində hadisələri Füzulinin Həbibinin qızı Əsmərə vurulması süjeti ətrafında cərəyan etdirir. Lakin Həbibi burada onun müəllimi yox, sadəcə dövrünün məşhur şairi kimi təqdim edilmişdir.

---

[1]Füzuli M. Seçilmiş əsərləri. Altı cilddə, III cild. Tərtib edəni: Araslı H. Redaktor: T. Kərimli. Bakı: Şərq-Qərb, 2005, s. 15.
[2]Yenə orada, s. 19.
[3]Bəndəroğlu Ə. Türkmən şairi Füzuli Bayatlı. Bağdad, 1971, s.2
[4]Rza R. Seçilmiş əsərləri. Beş cilddə, IV cild. Tərtib edəni: Anar. Redaktor: A. Əmrahoğlu. Bakı: Öndər, 2005, s. 156.
[5]Salamzadə O. Sevgi iztirabı. Redaktorlar:X. Cəlilova, E. Salamov. Bakı: Yazıçı, 2003, s. 16.
[6]Cəfərzadə Ə. Eşq sultanı. Ön sözün müəllifi: Vaqif Sultanlı. Bakı: Şirvannəşr, 2005, s. 9.

Ə.Cəfərzadə, O.Salamzadə və A.Dağlının əsərlərində Füzulinin oğlu Fəzli ilə münasibətləri, ailə məsələləri, həyat yoldaşı kimi mövzular qələmə alınmış, bu mövzuların bədii əksində də tarixi faktlar əsas götürülmüşdür. Bu yarımfəsildə həmin bədii və elmi əsərlərdən nümunələr gətirməklə sözügedən problem şərh olunmuşdur. Ə.Cəfərzadənin "Eşq sultanı" romanı və T.Bayramın "Şairin şikayəti" poemasında Füzuli və Sultan Süleyman münasibətlərinin ifadəsi də bu yarımfəslin hədəflərindəndir.

I fəslin ikinci yarımfəsli "**Füzuli obrazının arxetipik cizgiləri**" adlanır. Füzuli çoxəsirlik və zəngin Azərbaycan ədəbiyyatının dahi şairi olduğu kimi, şəxsiyyəti və bədii obrazı da ədəbi düşüncədə hər zaman diqqət mərkəzində olmuşdur. Şairin həyatı haqqında ədəbi-tarixi faktlarla yanaşı, bir çox əfsanələrlə də təsadüf olunmaqdadır. Bütün bunlar Füzuli haqqında avtobioqrafik faktlarla çulğalaşaraq onu ədəbiyyatımız üçün bədii simvola çevirmişdir. Bədii yaradıcılıqda Füzuli obrazının yaranma səbəblərindən biri onun arxetipik model üzrə inkişaf etməsi ilə izah olunmalıdır. Arxetip mental model olaraq özündə mifoloji və əfsanələşərək daşlaşmış xüsusiyyətləri ehtiva edən obrazdır. Arxetip - obraz və simvollarla ehtiva olunan ilkin ideyalar toplusudur. Ədəbi arxetipin əsas xüsusiyyətlərindən biri də onun güclü ümumiləşdirmə qabiliyyəti və tipoloji davamlılığıdır. A.Bolşakova "Ədəbi arxetip" məqaləsində sözügedən anlayışın əsas xüsusiyyətlər və formalarını belə şərh etmişdir: "Müasir ədəbiyyatşünaslıqda istifadə olunan arxetip polisemantik xüsusiyyətlidir və onun aşağıdakı formaları vardır: 1. Yazıçı fərdiliyi: Gələcək ədəbi prosesin yaranmasında bilavasitə rol oynamaq. 2. Dünya ədəbiyyatı üçün əbədi, yaxud daimi obrazlar (Məs. Don Kixot, Don Juan, Hamlet və s.). 3. Xristian-tövrat tematikası obraz və süjetlərin mənbəyi kimi.4. Antik mifik ənənə. 5. Daima həyatda, ədəbiyyatda rast gəlinən xarakter, obraz, yaxud vəziyyət və situasiya"[1].

Füzuli obrazı XX əsrdən etibarən, faktik olaraq Azərbaycan ədəbiyyatı üçün arxetip obraz rolunu oynamağa başlamışdır. Füzuli obrazı bir çox cəhətdən arxetipin tələblərinə cavab verir. Füzuli adının ədəbi fikrin, bədii yaradıcılığının əsası, özülü şəklində ifadəsi ona müraciət etmiş müəlliflərin yaradıcılığında daim ön planda olmuşdur. Füzuli ədəbiyyatımızda özündən sonrakı dövrdə fəaliyyət göstərən şairlərin istifadə edə biləcəyi motiv, süjet və məcazlar fondu yaratmışdır. Bu baxımdan o nüvə arxetipi kimi şairlərin ilham və muzası şəklində qəbul olunmalıdır. M.Araz

[1]Большакова А. Литературный архетип // Журнал "Литературная учеба", 2001, № 6, с. 169.

da məsələnin bu tərəfini əsas götürərək Füzulidən qaynaq, təməl daşı kimi bəhs etmişdir:

Sevən ürəklərə eşqin nur saçır,
Çiçəklər gülümsər günəş doğanda.
Səndən şeir yazır, səndən söz açır
Səni oxuyan da, oxumayan da[1].

N.Rəfibəyli, A.Cəmilin əsərlərində də Füzuli Azərbaycan poeziyasının təməl daşı kimi təsvir olunmuşdur. Füzulinin Günəş arxetipinə bərabər götürülməsi şairin öz yaradıcılığından qaynaqlanır. Fəxriyyə səpkili şeirlərinin birində yazırdı:

Səadəti-əzəli qabili-zəval olmaz
Günəş yer üstünə düşsə payimal olmaz[2].

Burada şair öz sənət gücünü günəş ilə müqayisə etmişdir. Füzuliyə ünvanlanan şeirlər sırasında Günəş arxetipi şairin öz bənzətmələrinə uyğun şəkildə yaradılmışdır. Belə ki, Ə.Kərimin şeirində "O günəş də, Füzuli odunun nişanəsi[3]simasında göstərilmiş, M.Araz yaradıcılığında isə şair söz günəşi kimi qiymətləndirilmişdir: "Neçə yol buluddan, göydən, günəşdən. O söz günəşinə salam gətirdin"[4]. M.Dilbazi, R.Rövşən şeirlərində də arxetip kontekstində Füzuli obrazı qüvvətli poetik yükə malikdir.

Arxetiplər ədəbiyyatda əbədi obraz statusu qazanırlar. Qeyd edək ki, yaradılmış bütün Füzuli obrazları birmənalı şəkildə bu və ya digər dərəcədə Məcnun arxetipi ilə bağlıdır. B.Vahabzadənin böyük şairə həsr etdiyi "Şəbi-hicran" poemasının baş qəhrəmanı Məhəmməd Məcnun qədər sadiq və dərdli aşiq kimi təsvir olunmuşdur:

Məcnun! Füzulinin başqa adıdır,
O, böyük şairin öz fəryadıdır[5].

Füzuli obrazının Məcnunla vəhdət təşkil etdiyi əsərlər sırasına O.Salamzadənin "Sevgi iztirabı" romanı da daxildir. O.Salamzadənin Fəzlisi eyni ilə Məcnun kimi nəzir-niyazla doğulmuşdur: "Allah-təala ona kişi cinsində yeganə varis bəxş etmişdi və bu varis tifilin nə qədər nəzir-niyaz bahasına dünyaya gəlişindən bütün el-oba xəbərdar idi"[6]. "Leyli və Məcnun" poeması ilə səsləşən əsərin baş qəhrəmanı Fəzli Məcnun kimi

---

[1]Araz M. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Tərtib edəni: G.Fətəli qızı. Bakı: Lider, 2004, s. 13.
[2]Füzuli M. Seçilmiş əsərləri. Altı cilddə, I cild. Tərtib edəni: Araslı H. Redaktor: T. Kərimli. Bakı: Şərq-Qərb, 2005, s. 335.
[3]Kərim Ə. Seçilmiş əsərləri. Tərtib edən və redaktor: P. Əlioğlu. Bakı: Lider nəşriyyat, 2004, s. 34.
[4]Araz M. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Tərtib edəni: G.Fətəli qızı. Bakı: Lider, 2004, s.13.
[5]Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, II cild. Tərtib edən və redaktor: A Bağırov. Bakı: Yazıçı, 2004, s.45.
[6]Salamzadə O. Sevgi iztirabı. Redaktorlar: X.Cəlilova, E. Salamov. Bakı: Yazıçı, 2003, s. 7.

məktəbdə bir sırada oturduğu Leylaya aşiq olur. Lakin Məcnunluq səciyyəsinə görə sözügedən obraz B.Vahabzadənin Füzulisindən zəif yaradılmışdır. Əgər Bəxtiyarın Füzulisi "Əsl aşiq mənəm düzü, hökmdar, Məcnunun dünyada ancaq adı var"[1] deyirsə, Fəzli "Məcnun eşqin Allahıdır, mən isə onun rəsulu"[2] söyləyərək bu "yarışda" məğlub olur. M.M.Seyidzadənin "Şairin gəncliyi" pyesində, Ə.Cəfərzadənin "Eşq sultanı" romanında, N.Xəzrinin "Füzuli ilə söhbət" epik-lirik parçasında Məcnun arxetipinə təsadüf olunur. Bu yarımfəsildə həmin əsərlərdən nümunələr təqdim olunaraq şərh olunmuşdur.

Füzuli obrazında rast gəldiyimiz digər arxetiplər şairin tənhalığı və bu tənhalıqdan doğan kədərdir. Qəm məfhumu, yaxud rəmzi qəm arxetipi Füzuli obrazının simasında təcəssüm etmişdir. Füzuli obrazının arxetipik cizgilərini araşdırdığımız zaman aydın olur ki, müəlliflər birmənalı şəkildə "qəmli Füzuli" fikrinə sadiq qalmış və şairin obrazına, əsasən, həmin prizmadan yanaşmışlar. K.Abdulla Füzuli şəxsiyyəti ilə bağlı önəmli bir məqamı ön plana çəkmişdir: "Dünya qəmini öz qəlbinə köçürməklə dünyanın təmizlənməsinə can atmaq və bu zaman özünü qurban vermək. Füzuli budur!"[3] Məsələyə həmin kontekstdə yanaşdıqda Füzulinin qəm və kədərə olan "düşkünlüyünün" səbəbini daha yaxşı anlayırıq. Bu bölmədə B.Vahabzadənin "Şəbi-hicran", Ə.Kərimin "Füzuli", S.Rüstəmxanlının "Şair heykəlləri" əsərləri əsasında "qəmli Füzuli" obrazı araşdırılmışdır.

I fəslin **"Tarixi obrazın bədii portretinin yaranmasında bioqrafiya və avtoportretin rolu"** adlanan üçüncü yarımfəslində Füzuli obrazının təsvirində dahi şairin bioqrafik məlumatları və avtoportretinin rolu tədqiq olunmuşdur. Füzulinin portretlərinə diqqət etdikdə bir-birindən fərqlənən bir neçə əsərlə rastlaşırıq. Şairin ilk xəyali rəsminə "Aşıq Çələbi" təzkirəsində rast gəlirik. "Aşıq Çələb"i təzkirəsindəki rəngli miniatürdə şair orta əsrlərin ruhani ziyalılarına mənsub qiyafədə, başı əmmaməli, əlində kitab bir çəmənlikdə nurani ağsaqqal şəklində verilmişdir. Şairin portretini doğma vətəni Azərbaycanda ilk dəfə rəssam Ə.Əzimzadə yaratmışdır. Məhəmməd Füzuli deyərkən hamının gözü önündə canlanan rəsm əsəri isə türk rəssamı Səadəddinə məxsusdur.

Ə.Cəfərzadə, B.Vahabzadə, R.Rza, M.Seyidzadə, A.Dağlı və şairin obrazına müraciət edən digər ədiblər çox güman ki, şairin hamıya bəlli olan

---

[1] Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, II cild. Tərtib edən və redaktor: A. Bağırov. Bakı: Yazıçı 2004, s. 30.
[2] Salamzadə O. Sevgi iztirabı. Redaktorlar: X.Cəlilova, E. Salamov. Bakı: Yazıçı, 2003, s. 56.
[3] Salam S., Başkeçid E., Kamal A. Məqamlar. Bakı: Mütərcim, 2011, s. 67.

avtoportretinə güvənərək bədii portret məsələsinə səthi toxunmuş və buna görə də heç biri Füzulinin müfəssəl bədii porterini yarada bilməmişdir.

Ə.Cəfərzadə "Eşq sultanı" romanında şairin mövcud portretindən istifadə etmişdir: "Birdən əsgər və qapıçılar dəstəsini yarıb, sultana yaxınlaşmağa can atan əlli-altmış yaşlarında bir adam göründü. Sinəsinə düşmüş çal saqqalı onu yaşından artıq göstərirdi. Əynində olduqca sadə, bəlkə də fəqir dərviş geyimi vardı. Başına ağ çalma qoymuşdu"[1]. B.Vahabzadə "Şəbi-hicran" poemasında maraqlı bədii priyom işlədərək şairin bədii portretini yaratmışdır. O, əsərin əsas qəhrəmanlarından olan Leylanın dili ilə şairin surətinin yaradılmasının çətinliyindən söhbət açır:

Rəsmini çəkirəm axı sənin mən,
Gözümün önünə gətirib səni…
Neçə cür çəkmişəm sənin şəklini,
Ancaq heç birini bəyənməmişəm[2].

Leylanın sevgilisinin portreti qarşısında düşdüyü bu müşkülün səbəbi isə, Məhəmmədin yaşı ilə uyuşmayan dərin zəkası, ağlı, dərin duyğuları və kədəridir. B.Vahabzadə qəhrəmanın – Füzulinin xarakterinin mühüm cəhətlərini özündə əks etdirən uğurlu bədii portret yaratmağa nail olmuşdur. Şairin yaradıcılığındakı bütün portretlər, çoxçeşidli tipləri olan bədii portretin "psixoloji portret" tipinə daxildir. Bildiyimiz kimi, "psixoloji portret" zahiri xüsusiyyətlərin təsviri vasitəsilə daxili aləmin psixologiyanın açılmasıdır. Füzulinin qaşı, araqçını, üzündəki qırışları ilə yanaşı, şairin baxışındakı qəm izləri, xalqının keçdiyi iztirab yolları kimi psixoloji məqamlar da ifadə olunmuş, psixoloji portretin gözəl nümunəsi yaradılmışdır. Bu yarımfəsildə, eyni zamanda, R.Rzanın "Füzuli" poeması, O.Salamzadənin "Sevgi izritabı" romanı, Ə.Tudənin lirikası Füzulinin bədii portreti kontekstində araşdırmaya cəlb olunmuşdur.

Birinci fəslin dördüncü yarımfəsli **"Yaradıcı şəxsiyyət və dünya xalqları ədəbiyyatında bədii obraz"** adlanır. Dünya ədəbiyyatı tarixində yaradıcı şəxsiyyətin bədii obraza çevrilməsinin bir sıra nümunələrinə təsadüf olunmaqdadır. Yaradıcı şəxsiyyətlərin bədii ədəbiyyatının əsas obrazına çevrilməsində müəyyən cəhətləri diqqətə almaq lazımdır. Bunları aşağıdakı şəkildə qruplaşdıra bilərik: 1. Təsvir olunan şəxsiyyətin həyatı ilə bağlı müəyyən sakral, mistik, yaxud gizli məqamların olması. 2. Təmsil etdiyi xalqın sənətkarları arasında nüvə xarakteri daşıması. 3. Həyat və fəaliyyətinin siyasi-tarixi baxımdan əhəmiyyətli olması.

---

[1]Cəfərzadə Ə. Eşq sultanı. Ön sözün müəllifi: Vaqif Sultanlı. Bakı: Şirvannəşr, 2005, s. 120.
[2]Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, II cild. Tərtib edən və redaktor: A. Bağırov. Bakı: Yazıçı 2004, s.21.

Qeyd olunan şərti bölgünün birinci qisminə görkəmli Roma şairi Ovidi Nazonun dünya ədəbiyyatında yaradılmış bədii obrazını aid edə bilərik. Ovidi Nazon eramızın IX əsrində yaşamışdır. Dünya ədəbiyyatında "Metamorfoza" əsəri ilə əbədi şöhrətini qazanmış Ovidi Nazon Oktavyan Avqust tərəfindən naməlum səbəblərdən Qara dəniz sahilindəki Toma şəhərinə sürgün edilmişdir. Şair haqqında yazılmış romanların da əsasını, məhz, bu gizli fakt təşkil edir. Tarixi mənbələrdə şairin qovulmasının səbəbi "Təhqir və səhv" kimi qeyd olunmuşdur. Bu təhqir sözü, çox güman ki, şairin "Sevgi incəsənəti" *("Ars amatoria")* əsərində pozğun həyatın tərənnümü və xəyanətin təsvirindən qaynaqlanmışdır. Poemanın yazıldığı dövr İmperator Oktavyan Avqustun böyük qızı Yuliyanın həyat yoldaşına xəyanət etdiyi dövrlə üst-üstə düşür. Şairin səhvi haqqında isə tarixdə məlumat yoxdur. Sözügedən obrazı ilk dəfə Kristof Ransmayn baş qəhrəman kimi qələmə almışdır. 1988-ci ildə yazdığı "Sonuncu dünya" romanında hadisələr şairin artıq sürgün edilməsindən sonra, Toma şəhərində cərəyan edir. Müasir Amerika ədəbiyyatının nümayəndəsi Ceyn Elison isə "Sevgi nəğməkarı" romanında şairin sürgün günlərinin gizli məqamlarını təsvir etmişdir. O, eyni zamanda, əsərdə dövrünün ən ehtiraslı poeması hesab olunan "Medeya"dan yalnız bir neçə sətrin dövrümüzə gəlib çatması, Ovidinin "Metamorfoza"sındakı qəhrəmanları xatırladan Kseniyanın kimliyi, onun mif, ya həqiqət olması kimi suallara cavab axtarırdı. Bununla yanaşı, romanda imperator sarayının çirkab mühiti, saray çəkişmələri də öz əksini tapmışdır. Məhz bu məqamda Ovidi obrazını Füzuli obrazı ilə müqayisəli təhlilə cəlb etmək mümkündür. Ceyn Elison şairin sevgilisi kimi tanınan Kseniyanı bir şəxsiyyət olaraq araşdırdıqdan sonra onu bədii əsərin qəhrəmanına çevirmişdir. Lakin belə bir məqam Füzulinin gənclik illərinin sevgisi kimi məlum olan Rəhmətullanın qızınının təsvirində təsadüf olunmur. O, yazıçılar tərəfindən araşdırılmadan əsərə daxil edilmişdir. "Rəhmətullanın qızı" deyə xitab etdiyimiz bu qızın əsl adı belə müəlliflər tərəfindən araşdırılmamışdır. Şairin Rəhmətullanın qızı ilə olan münasibətlərini əks etdirmək Ə.Cəfərzadəni, B.Vahabzadəni, M.M.Seyidzadəni gerçək Rəhmətulla və onun ailə üzvləri haqqında ciddi araşdırma aparmalarını zəruri edirdi. Lakin onlar şairin bir beytinə istinad edərək onu Leylinin kölgəsi şəklində yaratmış, bununla da sevgi münasibətlərini dövrün tarixi mənzərəsi fonunda təsvir etməmiş və bu məsələ ətrafında orijinal yazıçı mövqelərini qoruya bilməmişlər.

Rus ədəbiyyatında A.Zoriçin "Roma ulduzu" və R.Şmarakovun "Ovidi sürgündə" əsərlərində O.Nazonun həyatının yaradıcılığına təsiri məsələləri, həyat faktları əsasında ədibin bədii obrazının yaradılmasına

təsadüf edirik. Dünya ədəbiyyatında eyni obraza müraciət edən müəlliflər mütləq şəkildə özlərindən əvvəl yazılmış əsərlərdəki təkrarçılıqdan qaçırlar. Bunun üçün də onlar obyektlərini müxtəlif prizmalardan işıqlandırmağa meyl edirlər. Füzuli obrazına müraciət etmiş ədiblərimiz də şairin həyatının onun əsərlərinə olan təsiri məsələsini bədii yaradıcılığa gətirə bilərdilər. Bu zaman Füzuli əsərlərindəki tarixi-etnoqrafiq məqamlar daha geniş araşdırma tələb edəcəkdi. Ədəbiyyatşünaslıqda şairin yaradıcılığında, xüsusilə də qəsidə və qitələrində, eləcə də, epistolyar irsində İraq-Türkmən həyatının bir sıra məqamları işıqlandırılmışdır. Lakin elmi ədəbiyyatda təsdiqini tapmış bir çox məqamlar dahi şairin obrazından yan keçmişdir. T.Bayramın "Şairin şikayəti" pyesində Füzulinin "Şikayətnamə" əsərindəki hadisələr xatırlansa da, problemin qoyuluşu daha çox "rütbə və şan-şöhrət ölüsü olan saray bülbülləri" və "kasıb, lakin öz azadlığını hər nəsnədən uca tutanlar" arasındakı polemika ilə bağlıdır. Halbuki, bu əsər Füzuli mühitinin onun yaradıcılığına təsiri üzərində qurulsaydı, daha orijinal bir nümunə ilə qarşılaşardıq. Bu yarımfəsildə Muxtar Auezovun dörd kitabdan ibarət "Abayın yolu" epopeyasında yaradılmış Abay obrazı da Füzuli obrazı ilə müqayisəli təhlildə araşdırılmışdır. Eyni zamanda, tatar şairlərindən R.Xarisin "Getməyəcəyik", Zulfatın "Yalnızlıq", R.Axmetzanovanın "Tukay belə deyib", M.Aqlyamovanın "Tukay yazdan ayrılmazdır" şeirlərində tatar ədəbiyyatının milli idealına çevrilmiş şair Tukay obrazı da Füzuli obrazı ilə analoji tədqiqə gətirilmişdir.

Dissertasiyanın II fəsli **"Azərbaycan poeziyasında Məhəmməd Füzuli obrazının bədii əksi"** adlanır. "**Füzuli divanında şairin avtoportreti"** adlı birinci yarımfəslində dahi şairin divanı bədii obrazının ilk qaynağı kimi tədqiq olunmuşdur. Azərbaycan ədəbiyyatında Füzuli obrazının araşdırılmasına şairin yaradıcılığından başlamaq lazımdır. Füzuli yaradıcılığında müəllif obrazının psixoloji məqamlarının təsviri daha çox şairin lirikasında ifadə olunmuşdur. Görkəmli füzulişünas alim A.Rüstəmovanın da qeyd etdiyi kimi, "lirika bütövlükdə Füzuli şeirinin istiqamətverici özəyini təşkil edir"[1]. Şairin istər divanlarının dibaçələrində, istərsə də həmin qaynaqlardakı bədii nümunələrində Füzuli obrazı, yaxud da obrazı formalaşdıran ana cizgilər müşahidə olunmaqdadır. Füzuli lirik əsərlərində öz obrazını, ilk növbədə, aşiq kimi yaratmışdır. Aşiqlik Füzuli yaradıcılığında sadəcə ruh halı deyil, yaşam tərzi kimi qiymətləndirilir.

Məndən, Füzuli, istəmə əşari-mədhü zəmm,

---

[1]Rüstəmova A., Feyzullayeva V. Məhəmməd Füzuli: Fikir-sənət dünyası və Türkçə "Divan"ından seçmələr. Redaktor: X. Öztürk. Bakı: Qismət, 2005, s. 9.

Mən aşiqəm, həmişə sözüm aşiqanədir[1].

Kamal əhli olmanın yolu Füzuliyə görə yalnız aşiqlikdən keçir. Bu səbəbdən də şairin yaradıcılığındakı aşiq obrazı güclü romantik-ekspressiv enerjinin məhsuludur.

Füzulinin lirik məninin mayasını təşkil edən eşq bəzən sufi-irfani, bəzən də real-dünyəvi zəmində meydana çıxır. Şairin sufi terminologiyadan istifadəsi intensiv xarakter daşımışdır. Ədibin lirikasının sənətkarlıq baxımından təhlili bunu deməyə imkan verir. Lakin qeyd olunan məsələ ilə bağlı füzulişünaslıqda vahid fikir yoxdur. Mövcud problem ətrafında olan polemikalar bir məsələdə birləşir. Bütün tədqiqatçılar Füzuli yaradıcılığındakı irfani-təsəvvüfi meyli qəbul edirlər. Sözügedən sahədə fikir müxtəlifliyi isə ikili xarakterli eşqin hansının daha çox, hansının daha az işlənməsi aspektində meydana çıxmışdır. Həmin fikirləri yazılma dövrünə uyğun olaraq üç şəkildə qruplaşdırıla bilərik: 1. Azərbaycanda Sovet rejimi qurulana qədər yazılan tədqiqatlar. Bu məqalə və monoqrafiyalarda Azərbaycan (S.Mümtaz, B.Çobanzadə, Ə.Hüseynzadə), eləcə də dünya ədəbiyyatşünasları (İ.Hikmət, M.F.Köprülüzadə, Y.E.Bertels) Füzuli yaradıcılığını güclü sufi-irfani zehnin məhsulu hesab edirlər. 2. Sovet rejimi dövründə, marksist-materialist ideologiyasının hökm sürdüyü mərhələdə yazılan elmi əsərlər. Həmin araşdırmalarda Füzuli və sufizm məsələsinə qarşı kəskin bir mövqe müşahidə olunmaqdadır. Ədəbiyyatşünaslar (M.Cəfər, M.Quzuluzadə, F.Qasımzadə) şairin yaradıcılığında sufizmi yox səviyyəsinə endirmiş, sufi görüşləri səthi xarakterli hesab etmiş və şairin yalnış yola sapması kimi qiymətləndirmişlər. 3. Çağdaş filoloji fikir isə Füzuli yaradıcılığındakı təsəvvüf məsələsində birmənalı şəkildə birləşərək, sufi-irfani təfəkkürü Füzuli şeirinin özülü hesab edirlər. Tədqiqatçıların bir qismi (A.Rüstəmova, R.Hüseynov) sufi-irfani eşqlə paralel Füzulinin yaradıcılığında real eşqin tərənnümünün də olduğu qənaətində olmuşlarsa, bir qrup (G.Əliyeva, V.Almasov) şairin yaradıcılığının yalnız təsəvvüfi aspektdən araşdırılması gərəkliyi mövqeyindən çıxış etmişlər.

A.Rüstəmovanın araşdırmalarında müqayisə olunan iki məhəbbətin proporsiyası fərqli xarakter daşıyır. Araşdırmaçı alimə görə, Füzuli yaradıcılığında təsəvvüfi çalarlar daha qabarıq, real sevginin təsviri isə nisbətən azdır. Tədqiqatçı Füzulinin əsərlərində Allahın "ən gözəl əsəri" olan insanın təsviri zamanı sufi-irfani deyim tərzinə müraciət etdiyini söyləyirdi: "Beləliklə, Füzuli "Divan"larındakı qəzəllərin böyük əksəriyyəti

---

[1]Füzuli M. Seçilmiş əsərləri. Altı cilddə, I cild. Tərtib edəni: Araslı H. Redaktor: T. Kərimli. Bakı: Şərq-Qərb, 2005, s.107.

fəlsəfi-irfani eşq və gözəllik mövzusunu əhatə edir və burada həyatilik və ilahilik bir-birinə qaynayıb qarışır”[1].

Füzulinin həm ilahi, həm də real eşqi tərənnüm edən əsərlərində aşiq obrazının ən səciyyəvi xüsusiyyəti onun dözümlülüyüdür. Sevgilinin nazı, ona sitəm etməsi aşiqi usandırmır, əksinə o bunları məhəbbəti daim təravətli saxlayan bir məqam kimi qiymətləndirir:

Ey Füzuli, yar əgər cövr etsə, ondan incimə,
Yar cövrü aşiqə hər dəm məhəbbət tazələr[2].

Füzulinin lirik mənində təsadüf olunan xüsusiyyətlər arasında səbrli olması, obrazın nakam, yaxud bəxtsiz təqdimi, gözəllik aşiqi olması, gözəlliyin zahiri və daxili aləmin harmoniyası kimi təsviri məsələləri mühüm yer tutur. Bu cəhətlər dahi şairinin lirik əsərlərindən gətirilmiş nümunələr əsasında tədqiq olunmuşdur.

II fəslin **“Lirik şeirdə ideal şair obrazı axtarışı (1920-1970-ci illər)”** adlı ikinci yarımfəsli Azərbaycan poeziyasının sözügedən mərhələsində Füzulinin bədii obrazının tədqiqinə həsr olunmuşdur. Azərbaycan lirikasında Füzulinin müstəqil obraz kimi təsvir olunması XX əsrin əvvəllərindən başlamışdır. Görkəmli Azərbaycan şairi Əhməd Cavad Füzuli obrazına lirikamızda müraciət etmiş ilk şairlər sırasındadır. Ədib “Füzuli” şeirində şairə olan böyük məhəbbətini izhar etmişdir. 1925-ci ildə qələmə alıdığı “Füzuli” şeiri dahi şairin ecazından kənarda qalmayan böyük türk şairi Tofiq Fikrətin təsiri ilə yazılmışdır. T.Fikrət özünün “Füzuli” şeirində Məhəmməd Füzulinin obrazını yaratmışdır. Şeir, müəyyən mənada, Füzulinin psixoloji portreti, yaxud psixoloji bioqrafiyası hesab oluna bilər. Altı bəndlik şeirdə müəllif Füzulinin həm həyatına aid müəyyən məqamlardan, həm də əsərlərində qələmə aldığı məsələlərdən çıxış edərək mükəmməl və dolğun bir lirik obraz yaratmışdır.

Sovet dövründə Azərbaycan ədəbiyyatında Füzuli obrazının yaradılması sahəsində zəngin nümunələrə təsadüf olunur. Şairin vəfatının 1958-ci ildə qeyd edilən 400 illiyi günlərində, demək olar ki, əksər aparıcı qələm sahibləri Füzuliyə həsr edilmiş əsərlər yazmışlar. Füzuliyə həsr olunmuş lirik şeirləri iki şəkildə qruplaşdırmaq mümkündür: 1. Şairlə mükalimə şəklində qurulmuş şeirlər. 2. Şairi tərənnüm edən əsərlər. N.Rəfibəyli, N.Xəzri, Ə.Tudə kimi şairlərimiz Füzuli ilə xəyali söhbət

---

[1]Rüstəmova A., Feyzullayeva V. Məhəmməd Füzuli: Fikir-sənət dünyası və Türkcə “Divan”ından seçmələr. Redaktor: X. Öztürk. Bakı: Qismət, 2005, s.15.
[2]Füzuli M. Seçilmiş əsərləri. Altı cilddə, I cild. Tərtib edəni: Araslı H. Redaktor: T. Kərimli. Bakı: Şərq-Qərb, 2005, s.131.

qurmuşlarsa, S.Vurğun, H.Arif, Qabil, S.Rüstəm, C.Novruz, H.Kürdoğlu kimi ədiblərimiz isə şairin obrazını tərənnüm vasitəsiylə canlandırmışlar.

S.Vurğun "Azad ilham", "Füzulinin dərdi" şeirlərində Füzulinin bədii obrazını yaratmışdır:

Yıxılmış gördüyün dövran,
Dəyişmiş başqadır insan,
Azərbaycan, Azərbaycan,
Böyük dahilərin azmı?[1]

Füzuli mövzusu görkəmli şairimiz N.Xəzri yaradıcılığı üçün daha ənənəvi xarakterə mailik olmuşdur. Şairin Füzuli yaradıcılığına ilk müraciəti "Füzuli ilə söhbət" lirik-epik parçası ilə başlamışdır. Bədii irsi ilə ədəbiyyatımızın unudulmaz səhifələrində özünə yer etmiş N.Xəzrinin epik-lirik səciyyəli əsərləri sırasına daxil olan "Füzuli ilə söhbət" həcminə görə kiçik poemanı xatırladır. Şairin özünün poemaları sırasına daxil etdiyi bu ədəbi nümunəni lirik şeirlər silsiləsi adlandırmaq, zənnimizcə, daha məqsədəuyğundur. Lirik parça beş yarımbaşlıqdan ibarətdir. "Üfüqlər", "Eşq və səadət", "Mənim ürəyim", "Etiraf", "Səba yeli" adlanan bölmələrin hər birinin başlığında Füzulinin qəzəllərindən epiqraflar təqdim olunmuşdur. Başlıqlardan ikisi - "Üfüqlər" və "Eşq və səadət" M.Füzulinin, digər üçü isə N.Xəzrinin dilindən verilmişdir. Sonuncu bəndlərdə şairin öz təxəllüsünü işlətməsi şeirlərin ruhunu xalq şeir-üslubuna yaxınlaşdırmışdır. Buradaki Füzuli obrazı N.Xəzrinin poetik məni kimi çıxış edir:

Kim ki, öz elinin qədrini bildi,
El onun ömrünü uzadacaqdır.
Kim ki, öz elilə ağladı, güldü,
El onu qəlbində yaşadacaqdır[2].

Məhəmməd Füzulinin dünya malına olan biganəliyi "Etiraf" parçasına verilmiş epiqrafda öz əksini tapmışdır. Bu parçada N.Xəzri Füzulinin Leyli üçün istifadə etdiyi mübaliğəsindən məharətlə istifadə etmişdir. Şair Füzulinin Leylinin dərddən əriyərək sapa dönməsi mübaliğəsinə uyğun olaraq sevgisini göz yaşlarının muncuq təki o sapa düzülməsi kimi təsvir edir:

İstəsən sevgilim göz yaşlarımı,
Düzərəm boynuna mirvari kimi[3].

---

[1]Vurğun Səməd Əsərləri. Yeddi cilddə. I cild. Tərtib edəni: N..Ələkbərov. Redaktor: Q.İ.Vəkilova. Bakı: Elm, 1985, s.185.

[2]Xəzri N. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: Lider, 2004, s.229.

[3]Yenə orada, s.192.

M.Füzuliyə həsr olunmuş şeirlər içərisində özünəməxsus yer tutan "Füzuli ilə söhbət" özünün lirik-fəlsəfi mahiyyəti ilə seçilir. Bu yarımfəsildə silsiləyə daxil olan lirik parçalar, eyni zamanda, şairin Kərbəla səfərinin təəssuratlarını əks etdirdiyi "Kərbəla" şeiri geniş şəkildə araşdırılmış, Füzuli obrazının səciyyəvi xüsusiyyətləri meydana çıxarılmışdır. Bu bölmədə N.Rəfibəylinin "Füzuli ilə gecə söhbəti", Ə.Tudənin "Füzuli ilə söhbət", R.Rzanın "Duyğular", H.Arifin "Sən oldun", X.R.Ulutürkün "Sahil", M.Şəhriyarın "Əzim şairimiz Füzuliyə", Ə.Kərimin "Füzuli", C.Novruzun "Füzuli", "Füzulinin hüzurunda", B.Vahabzadənin "Dəclə", "Öldü-yaşadı", "Füzuliyə", "Leyli və Məcnun", H.Kürdoğlunun "Ey Füzuli tilsimin..." mətləli və "Füzuli" rədifli qəzəlləri və digər əsərlərdə Füzuli obrazı müqayisəli şəkildə tədqiq olunmuşdur.

II fəslin üçüncü yarımfəsli **"XX əsr epik şeirində Füzuli obrazı"** adlanır və bu bölmə Füzuliyə həsr olunmuş poemalarda dahi şairin obrazının araşdırılmasına həsr olunmuşdur. Millətin milli-mənəvi yaddaşında, mədəniyyəti və ədəbi düşüncəsində yaşayan ölməz sənətkarlar zamanından asılı olmayaraq sevgi və ehtiramla xatırlanır, bədii yaradıcılığının təməl fəlsəfəsini təşkil edir. Füzuli ədəbi şəxsiyyəti sözügedən kateqoriyada hər zaman ön plandadır. XX əsrdə Füzuli obrazına bədii nəsr, lirika və dramaturgiyada təsadüf edilsə də, poema bu əsərlər arasında xüsusi yer tutur. Ədiblərin poema ustası olan Füzuliyə eyni ədəbi forma ilə müraciəti janrın epik-lirik xüsusiyyətləri özündə sinkretizə etməsindən qaynaqlanırdı.

Füzuli haqqında yazılmış müxtəlif səpkili poemalar şairin sevgisi, ideyaları və onların uğrunda əzab-əziyyətlərə sinə gərdiyinin ifadəsidir. Ətrafında gedən siyasi münaqişələrdə tutduğu mövqe, eləcə də qəlb imtahanlarında, sevgi yolunda çəkdiyi əziyyətlər zamanı göstərdiyi mətanət və səbr şairin xarakterinin təsvirində mühüm rol oynayır. Şairə həsr olunmuş "Şəbi-hicran", "Odlu şikayətlər" kimi poemalarda lirik psixoloji məqamların təsviri üstünlük təşkil edir. Lakin sözügedən iki poemadan fərqli olaraq R.Rzanın "Füzuli" poemasında daha çox epik təhkiyyə ön plandadır. Füzuli obrazı tarixi şəxsiyyət olmaqla yanaşı, ümumiləşdirilmiş tipik obraz təsiri bağışlayır. Dahi şair bütün poemaların süjet xətti boyunca yaşadığı dövrün ziddiyyətləri içərisində təsvir olunmuşdur. Lakin dövrün real tarixi problemlərinin təsviri müəlliflərin özlərinin yaratdığı "süni" problemlərin fonunda daha az nəzərə çarpır. Elə bu səbəbdən də şairin xarakteri tam dolğunluğu ilə yaradılmamışdır.

B.Vahabzadə "Şəbi-hicran" poemasında Füzulini lirik-psixoloji obraz kimi təsvir etmişdir. Əsərin tarixi mövzuda yazıldığını nəzərə alaraq

B.Vahabzadə şairin həyatı ilə bağlı bir çox hadisələri təhrif etmədən qələmə almışdır. “Şəbi hicran” poemasında iki şair obrazı vardır. Füzuli obrazının fonunda B.Vahabzadə həm öz daxili dünyasını, həm də Füzulinin taleyini qələmə almışdır:

Sənətkar dediyin yanar çıraqdır.
Elin kədərinə, elin qəminə
Şair də yanmayıb, kim yanacaqdır?[1]

Şairin yaratdığı obraz özündə həm Məhəmməd Füzuli şəxsiyyətini, həm onun yaratmış olduğu Məcnunu, eləcə də özünün poetik mənini ehtiva edir. B.Vahabzadə “Şəbi hicran” poemasında bədii konflikti qəhrəmanların xarakterini açan poetik açara çevirə bilmişdir. Sözügedən konflikt Füzuli, Leyla, Əbdül Kərim üçlüyü ilə əmi qatili Zülfüqar xan, Sultan Süleyman və onların mənsub olduqları cəmiyyətin başçıları arasındadır. B.Vahabzadə klassik irsimizin mahir bilicilərindən idi. Daha çox qəhrəmanlarının psixoloji təsviri üçün seçdiyi məcazlar, müraciət etdiyi tarixi hadisələr məzmun etibarı ilə divan ədəbiyyatının nümunələrini xatırladır. Füzulini yaralı qamışa bənzətməkdə müəllif həm onun çarəsiz iniltilərinə gözəl bədii don geyindirmiş, həm də klassik ədəbiyyatımızda ney haqqında olan hekayəyə işarə etmişdir. Təsəvvüf təlimindəki vəhdəti-vücud konsepsiyasına görə, qamış “küll”ü, ondan kəsilərək hazırlanan ney isə “cüzv”ü simvolizə edir. Ney ona görə daim fəryad edərək nalə çakir ki, o əslindən, yəni qamışdan ayrı düşmüşdür. Bu hadisəni misal çəkərək sufilər Allahı qamışa, insanı isə əslindən ayrılmış neyə bənzədirlər. Başqa sözlə, sufizm fəlsəfəsinə görə, insanın bu dünyadakı əzab-əziyyəti, fəraq etməsi əslindən ayrılması ilə izah olunur. Poemanın “Eşq yanğısı” adlı hissəsində Kərimin dilindən verilən ney əhvalatında Füzulinin qamışa bənzədilməsi də, B.Vahabzadə poeziyasının klassik irsin ənənləri üzərində yetişən bir yaradıcılıq məhsulu olduğunu təsdiqləyir.

Alnında izlər açdı əzabları xış kimi,
İnlədi çöldə bitən yaralı qamış kimi[2].

Bu yarımfəsildə “Şəbi-Hicran” poeması həm ideya-bədii xüsusiyyətləri kontekstində, Füzuli obrazının dərin fəlsəfi, psixoloji, sosial tərəflərinin şərhi baxımından təhlil olunmuş, həm də filoloji fikirdə əsər haqqındakı fikirlərə münasibət bildirilmişdir. R.Rzanın “Füzuli”, H.Məmmədin “Odlu şikayətlər” poemaları da bu bölmədə tədqiqata cəlb olunmuş, obrazın ifadəsindəki əsas məziyyətləri meydana çıxarılmışdır.

---

[1]Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, II cild. Tərtib edən və redaktor: A. Bağırov. Bakı: Yazıçı 2004, s.20.
[2]Yenə orada, s.34.

Lakin qeyd etməliyik ki, "Şəbi-hicran" poeması istisna olmaqla digər ədəbi nümunələr obrazın əhatə olunması, dini-ideoloji qaynaqların təsviri, tarixi-ictimai hadisələrin əks olunması baxımından yetərsizdir.

II fəslin sonuncu yarımfəsili **"Assosativ poeziyada tarixi obrazın orijinal cizgiləri"** adlanır. 60-cı illərdən başlayaraq poeziyada yeni streotiplər müəyyən olundu. Daha çox forma orijinallığı ön plana keçdi. Bu nüans isə yazılan şeirlərdə zaman-zaman məzmun zəifliyinə, klassik ənənəvi poeziyamıza məxsus forma-məzmun vəhdətində dəyişikliyə səbəb olurdu. Bu səbəbdən də yaranan yeni meyllər və təmayüllərin bəziləri uzunömürlü olsa da, digərləri oxucu "süzgəc"indən keçməyərək sadəcə cığır olaraq qalırdı. Təqlidçiliyin və epiqonçuluğun qarşısının alınmasında bu yeniliklər, sözsüz ki, labüddür. Müasir poeziyamızın sözügedən yeni meyllərindən biri də "İntellektual poeziya" adlanır. Ədəbiyyatımızda "İntellektual poeziya" ifadəsi Y.Qarayevə məxsusdur. XX əsr poeziyasında intellekt axtarışına çıxan böyük tənqidçi həmin poeziyanın rüşeymlərini, məhz, Füzuli yaradıcılığında tapırdı: "Azərbaycan, Şərq və dünya elmi-nəzəri tarixində "könüllər fatehi", "qəlb şairi", "eşq və məhəbbət nəğməkarı" kimi etiraf olunan Füzulinin poeziyası, əslində, xalis elmi dəyərlərə əsaslanan intellektual poeziyadır"[1]. İntelektual poeziyanın nümayəndələri – R.Rövşən, V.Səmədoğlu, A.Mirseyid, V.Bayatlı və başqalarının yaradıcılığında söz orijinal bədii həlqəyə bürünür, mövzular təkrar olsa belə, avanqard yanaşma tərzi ilə oxucunun hələ doymadığı bir sənət nümunəsi yaranır. İstər S.Vurğunun "Füzulinin dərdi", N.Xəzrinin "Füzuli ilə söhbət", H.Arifin "Sən oldun", Ə.Kərimin "Füzuli" şeirlərində, istərsə də 80-ci illərin intelektual poeziyasında - R.Rövşənin "Şam", V.Səmədoğlunun "Füzuliyə", A.Cəmilin "Düşünən heykəl" əsərlərində şairlərin Füzuli obrazına bir pərəstişi duyulur. Əgər birincilər ənənəvi bir Füzuli - dərdli şair obrazı yaratmışlarsa, intelektual poeziya nümunələrində şairin obrazı yeni cizgilərlə işlənmişdir. Bu yarımfəsildə R.Rövşənin "Şam", V.Səmədoğlunun "Füzuliyə", Vaqif Bayatlı Odərin "Vaqif Bayatlı Önər", Ə.Cəmilin "Düşünən heykəl" şeirləri və digər əsərlər araşdırılmış, Füzuli obrazına yeni yanaşma meylləri ortaya çıxarılmışdır.

Dissertasiyanın III fəsli **"Nəsr və dramaturgiyada Füzuli obrazı"** adlanır. "**Bədii nəsrdə obrazın fəlsəfi tutumu"** adlı birinci yarımfəsildə nəsr janrında yazılmış əsərlərdə Füzulinin bədii obrazı tədqiq olunmuşdur. Nəsr yaradıcılığında Füzuli obrazına müraciət XX əsrdə geniş şəkildə təsadüf olunur. Bir tərəfdən şairin tərcümeyi-halını əsas götürərək tarixi

[1]Qarayev Y. Şərqin dahisi. Redaktor: İ. Vəliyev. Bakı: Azərbaycan ensiklopediyası, 1996, s.7.

faktları dəyişmədən, digər tərəfdən isə tarixi faktlara bədii təxəyyülün işığında yanaşaraq yazıçılar Füzulini əsərlərinə baş qəhrəman seçirlər. M.Füzuliyə həsr olunmuş bütün əsərlərin əsas qayəsini Füzuli möhtəşəmliyi və onun əsrlərə səs salan sevgisi təşkil edir. Füzuli obrazının bədii nəsrdəki mövqeyi digər növlərdə yazılmış əsərlərə nisbətən daha əhatəlidir. Çünki daha geniş həcm, süjet xətti, kompozisiya imkanlarına malik roman və povestlər obrazı müxtəlif cəhətləri ilə təsvir etməyə imkan verir. Fikrimizcə, Füzuli mövzusu üçün ən ideal forma romandır.

Tarixi mövzulu əsərlərdə fakta ciddi münasibət ifadə olunmalıdır. O.Salamzadə Nizamiyə həsr etdiyi "Əsrlərin sirri" romanında olduğu kimi, Füzuliyə ithaf etdiyi "Sevgi iztirabı" romanında da tarixi hadisələrə paralel bir sıra uydurma motivlər də əlavə etmiş, XVI əsrdə yaşamış Füzulini Giziroğlu Mustafa bəy, Koroğlu kimi digər əsrin tarixi və ya dastan qəhrəmanları ilə görüşdürmüşdür. Əsər, məhz bu qüsurlarına görə, tənqid olunmuşdur. Qeyd etdiyimiz kimi, yazıçı improvizasiyası ümumi tarixi mənzərəyə təsir göstərməyəcək dərəcədə olmalıdır. Tarixi əsər, məhz tarixi faktlar üzərində qurulduğu üçün onların mahiyyəti mühafizə edilməlidir. Romanda ədəbiyyat tariximizdə M.Füzuli kimi tanınmış şairin adı nədənsə Fəzli kimi verilmişdir. Müəllif özü bu haqda yazır: "Süleyman da türk adəti ilə oğlunun birinci adını qoyanda - əski türklərdə yetkinlik yaşına çatıb qabiliyyəti müqabilində el məclisindən yeni ad alıncaya qədər uşaq adla çağrılardı - sonuncu peyğəmbərin mübarək adına üstünlük vermişdi, adını Məhəmməd qoymuşdu. Odur ki, atası oğlunun adını məktəb siyahısına Məhəmməd Fəzli ibn Süleyman kimi saldırmışdı"[1]. Lakin tarixdən də məlum olduğu üzrə, Füzuli böyük şairin ləqəbi olmuş və şair bu haqda fars divanının dibaçəsində belə məlumat vermişdir: "Başqasına bənzərliyi aradan qaldırmaq üçün Füzuli təxəllüsünü götürdüm. Bildim ki, bu ləqəb heç kimin xoşuna gəlməz. Odur ki, başqası buna sahib çıxaraq məni rahat buraxmayacaqdır. "Füzuli" lüğətdə ülum fünun kimi fəzlin cəmidir"[2]. Fəzli isə Məhəmməd Füzulinin oğlunun adı olmuşdur. Bu eynilik bəzi məqamlarda dolaşıqlığa gətirib çıxarmışdır. Əsərin ikinci - "Qəmli aşiqin dövranı" hissəsində yazıçı Fəzli ilə oğlunu ayırmaq üçün kiçik Fəzli adından istifadə etmişdir: "Mövlana Füzuliyə salam verib, təzim edənlər hədsiz idi, sanki bütün şəhər ona dost-tanış idi. Kiçik Fəzliyə elə gəlirdi ki, atasının başı əyilib-qalxmaqdan üzülüb, yerə düşəcək"[3].

---

[1]Salamzadə O. Sevgi iztirabı. Redaktorlar: X. Cəlilova, E.Salamov. Bakı: Yazıçı, 2003, s.8.
[2]Füzuli M. Seçilmiş əsərləri. Altı clddə, II cild. Tərtib edəni: Araslı H. Redaktor: T. Kərimli. Bakı: Şərq-Qərb, 2005, s.17.
[3]Salamzadə O. Sevgi iztirabı. Redaktorlar: X. Cəlilova, E. Salamov. Bakı: Yazıçı, 2003, s.422.

Əsərdə Füzuli hələ kiçik yaşlarından artıq qeyri-adi bilik və eridusiyaya malik uşaq kimi göstərilmişdir. Qələmə aldığı qəzəlləri naməlum müəllif adı altında söyləməsi bu lirik parçaları dinləyənlərdə onun müəllifinə bir heyranlıq doğururdu. Roman boyunca yazıçı Məhəmməd Füzulinin epik və lirik yaradıcılığından istifadə etmişdir. Füzulinin atasının meyvə bağı haqqında olan hissədə "Söhbətül əsmar"dan, səhradan qayıtdıqdan sonra, atası ilə dialoqu zamanı Məcnunun dilindən olan qəzəllərdən, dostu Nəcəflə Azərbaycan türkcəsində yazmağın fəziləti haqqında danışdığı səhnədə isə "Ol səbəbdən farsi-ləfzilə çoxdur nəzm kim" misrası ilə başlayan qitəsindən faydalanmışdır.O.Salamzadə Məhəmməd Füzulinin öz lirik qəzəllərindəki poetik mənini obrazlaşdırmışdır. Bu yarımfəsildə əsər geniş şəkildə təhlil olunmuş, eyni zamanda, tarixi romanlarda fakt və yazıçının bədii təxəyyülü məsələsinə nəzəri aspektdə yanaşılmış, ədəbiyyatşünaslığımızda problemlə bağlı bir sıra mülahizələr şərh olunmuşdur. Bu bölmədə Ə.Cəfərzadənin "Eşq sultanı" romanı da tədqiq olunmuşdur. Ə.Cəfərzadənin Füzulinin obrazını yaratdığı zaman qarşısına qoyduğu məqsəd bədii bioqrafiya yaratmaq deyildi. Bu romanda başlıca qayə sənətkar və zaman problemi ilə bağlı idi. Müəllif Füzulinin yaşadığı dövrü dolğun sosial-siyasi mənzərəsi ilə canlandırmağa çalışmış, həmin tarixi fonda qəhrəmanın xarakterini, müasirlərinə münasibətini, mənəvi dünyasını, öz əsri ilə bağlılığını diqqət mərkəzinə çəkmişdir. Füzuli bütün bəşəriyyətə səslənən alim-filosof kimi dünya mədəniyyəti tarixində ölməz yer tutmuşdur, lakin Ə.Cəfərzadə obraz baxımından Füzulini bu zirvəyə qaldıra bilməmişdir.

Məhəmməd Füzuli ilə bağlı tarixi materiallara və faktlara orijinal yanaşma Mirzə İbrahimovun "Əbədi həyat" yarımçıq povestində də mövcuddur. Ədib tənqidi məqalələrində Füzuli haqqında dolğun söz desə də, şairin həyatını bədii şəkildə işləmək ona ömrünün sonlarında nəsib olmuşdur. Bu səbəbdən də "Əbədi həyat" povesti yarımçıq qalmışdır. M.İbrahimov əsəri ilk dəfə 1965-ci ildə yazmağa başlamışdır. Müəyyən bir müddət fasilə vermiş və yenidən 1979-cu ildə əsər üzərində işləməyə qayıtmışdır. Povest yarımçıq olsa da, M.İbrahimovun Füzuli şəxsiyyətinə verdiyi dəyərin göstəricisi və şairin Azərbaycan ədəbiyyatındakı obrazları içində fərqli xüsusiyyətləri ilə seçilən söz heykəlidir. Qeyd olunan romanlar, eləcə də, H.Abbaszadənin "Bağdadda bir gecə", H.İbrahimovun "Müğənni", Ə.Hacıyevin "Sən yaşayacaqsan" və digər hekayələr araşdırılmış, Füzuli obrazının güclü və zəif cəhətləri meydana çıxarılmışdır.

III fəslin **"Tarixi dramaturgiyada Füzuli obrazının yeri"** adlı ikinci yarımfəsli dram əsərlərində dahi şairin obrazının öyrənilməsinə həsr

olunmuşdur. M.M.Seyidzadə "Şairin gəncliyi" dramında, T.Bayram "Şairin şikayəti" mənzum pyesində, A.Dağlı "Füzuli" və A.Zeynallı "Karvan gedir..." pyesində şairin yaddaqalan obrazını yaratmağa səy göstərmişlər. Bütün bu əsərlərdə Füzuli fenomenal istedada malik bir şair kimi təsvir olunmuşdur. Bu yarımfəsildə sözügedən əsərlər geniş şəkildə təhlil olunmuş, Füzuli obrazının dramaturgiyadakı fərqli və ümumi xüsusiyyətləri meydana çıxarılmışdır.

**"Nəticə"**də dissertasiya işində əldə olunan elmi qənaətlər ümumiləşdirilmişdir. Göstərilmişdir ki, müxtəlif növ və janrlarda yazılmış əsərlərdəki Füzuli obrazı ədəbiyyat tarixindən bizə məlum olan Məhəmməd Füzulidən daha çox, Məcnun obrazı ilə səsləşir. Füzuli obrazı ilk dəfə şairin özü tərəfindən yaradılmışdır. Təkrarsız bədii nümunələrindəki şair məni obrazın ilkin qaynağı kimi qiymətləndirilməlidir. Yaradılan Füzuli obrazlarının ideya-bədii tutumuna görə, dahi şairin obrazını bütün dövrlər üçün müasir və aktual hesab etmək mümkündür. Füzuli obrazını yaradarkən bütün müəlliflər tarixi həqiqətlərə sadiq qalmışlar. Süjet müxtəlifliyi və yazıçı təxəyyülü yalnız şairin həyatının elm aləminə bəlli olmayan məqamlarının təsvirində ortaya çıxmışdır. Füzuli obrazı özündə bir sıra mühüm arxetipik cizlgiləri ehtiva edən mental modeldir. Nüvə, Məcnun, şair, bəşəri kədər arxetipləri şairin yaradılan obrazının əsasında dayanır. Füzuli bir obraz kimi folklor ünsürlərini də daşıyır. Yalnız Azərbaycan deyil, İraq-türkman və Anadolu folklor areallarında da Füzulinin obrazlaşması haqqında müxtəlif rəvayətlərin meydana gəlməsi obrazın folklor ünsürləri ilə zənginləşməsinə şərait yaratmışdır.

Füzuli bütün əsərlərdə dövrünün mütəfəkkiri kimi qəbul olunmuşdur. Lakin müəlliflər həyatın təzadlı anlarında Füzulini bir filosof kimi düşündürə və yüksəldə bilməmişlər. Şairin Bağdadda yaşaması əsərlərdə milli koloritin ifadəsinə əngəl olan amil kimi ortaya çıxmamışdır. Əksinə, müəlliflər tərəfindən qələmə alınmış sözügedən fakt həm Azərbaycan - Bayat, həm də İraq - Azərbaycanının XVI əsr milli adət-ənənələrinin əsərlərə daxil olmasına şərait yaratmışdır. Beləliklə də, müəlliflər həmin dövr Azərbaycan insanını, məişətini tanımağa və anlamağa bir növ bələdçilik etmişlər. Füzuli və sufizm təlimi ətrafındakı polemikalar şairin obrazına da sirayət etmişdir. Bəzi müəlliflər mütəfəkkir ədibi ilahi eşqə can atan bir sufi, digərləri isə real sevgini tərənnüm edən şair kimi təsvir etmişlər. Lirikada rast gəldiyimiz Füzuli obrazı daha çox göylər şairi, poema və romanlarda qarşılaşdığımız Füzuli isə təsəvvüflə əlaqəsi olmayan real aşiq simasında təcəssüm etdirilmişdir.Yaşadığı zamandan bəri məşhurluğunu itirməyən Füzuli hələ bundan sonra da bədii əsərlərin

səhifələrini bəzəyəcək. Füzuli daha çox "eşq şairi" olduğundan obrazlaşarkən də şairin, məhz bu xüsusiyyəti qabarıq götürülmüşdür. Füzuli eşqin o qədər çox çalarından istifadə etmişdir ki, "Füzuli məhəbbəti", "Füzuliyanə məhəbbət" kimi anlayışlar dilimizə daxil olmuşdur. Bu səbəbdəndir ki, hər müəllifin yaradıcılığında ayrı bir Füzuli eşqi, bir başqa Füzuli məhəbbəti öz əksini tapmışdır. Füzuli yaradıcılığı, onun yaratdığı obrazlar sistemi, irəli sürdüyü dərin fəlsəfi fikirlər özündən sonra gələn söz ustalarının yaradıcılıq qaynağına çevrilmişdir. Şairin obrazında həm Məhəmməd Füzuli şəxsiyyəti, həm də əsəri qələmə alan müəlliflərin dünyagörüşü - bədii məni çulğalaşır. Çağdaş lirikadakı Füzuli obrazı dahi şair qarşısında mənəvi borcu ödəmə xarakteri daşıyır.

**Tədqiqatın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**


1. Aləmdə səsi qalan Füzuli // Filologiya məsələləri, 2014, № 9, s. 347-352.
2. Bağdaddan əsən külək // Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, 2014, № 4, s. 253-258.
3. Dramaturgiyanın tragik qəhrəmanı // Filologiya məsələləri, 2015, № 3, s. 250-256.
4. Sarının "Füzuli" çaları // Azərbaycan Dövlət Pedoqoji Universiteti xəbərləri, 2015, № 1, s. 333-337.
5. İntellektual poeziyada Füzuli obrazının orijinal inikası / Azərbaycan Dövlət İqtisad Universiteti, Gənc doktorant və dissertantların XIX Respublika konfransının materialları. Bakı, 7-8 aprel 2015. Bakı: İqtisad Universiteti, 2015, I cild s.416-418.
6. Məcnunluq yarışı / Bakı Dövlət Universiteti, Bəxtiyar Vahabzadə adına Beynəlxalq konfransın materialları, Bakı, 29 oktyabr 2015. Bakı: BDU, 2015, s.197-200.
7. "Şəbi-hicran" yaxud dahilərin qovuşması / Azərbaycan Dövlət Pedoqoji Universiteti, Bəxtiyar Vahabzadə "İnsan və zaman" adlı Respublika konfransının materialları, Bakı, 26-27 noyabr, 2015. Bakı: ADPU, 2015, s. 236-239.
8. Tarixi obrazın bədii portretinin yaradılmasında bioqrafiya və avtoportretin rolu / Gəncə Dövlət Universiteti, Gənc alimlərin I beynəlxalq konfransının materialları, II hissə, Gəncə, 16-17 oktyabr 2016. Gəncə: GDU, 2016, s.126-128.

9. Bədii diskursiv müstəvidə Füzuli obrazı (B.Vahabzadənin “Şəbi hicran” poeması əsasında) // BDU, “Dil və ədəbiyyat” jurnalı, Bakı, 2016, №4, s.235-241.
10. Образ Физули как национальный идеал в историческом романе XX в // Высник,серия- Фылологичны науки, Украина: 2016, № 2(12), с.98-10.

**Мехрибан Октай кызы Мовламова**

# ОБРАЗ МУХАММЕДА ФИЗУЛИ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трёх глав, выводов и списка использованной литературы. Во введении обосновывается актуальность темы, излагается объект, предмет, цели и задачи, научно-теоритические и методологические основы исследования, научная новизна диссертации, её теоритическое и практическое значение.

Первая глава «Образ Мухаммеда Физули как культурный феномен» состоит из четырёх подглав. Вуказанных подглавах рассматривуются о таких темах как: «Историческая действительность и художественная реальность», «Архетипичные черты образа Физули», «Роль автопортрета и биографии в создании художественного портрета образа Физули», «Творческая личность и художественный образ в литературе народов мира».

Во вторую главу, название которой «Образ Мухаммеда Физули как художественное отражение азербайджанской поэзии», в исследование включены следующие подглавы: «Автобиографизм в диванах поэзии Физули», «Поиск идеального поэта в лирическом стихотворении», «Оригинальные черты образа в ассоциативной поэзии».

Исследование образа Физули в таких жанрах как роман, повесть, рассказ и драма, было проведено в третьей главе – «Образ Физули в драматургии и прозе». Относящиеся к третьей главе подглавы «Философское содержание образа в художественной прозе» и «Образ и его место в исторической драматургии» являются важными для исследования. С точки зрения психологическое исследование образа Мухаммеда Физули глава является важной.

В «Выводах» отражены заключительные положения и обобщены полученные научно-теоритические предложения и рекомендации.

**Mehriban Ogtay gizi Movlamova**

# THE IMAGE OF MUHAMMED FİZULI IN AZERBAIJANI LITERATURE

## SUMMARY

The thesis consists of an introduction, three chapters, conclusions and a list of used literature.

In the introduction, the urgency of the topic is substantiated, the object, the subject, the goals and tasks, the scientific-theoretical and methodological bases of the research, the scientific novelty of the dissertation, its theoretical and practical significance are set out.

The first chapter "The image of Muhammed Fizuli as a cultural phenomenon" consists of four sub-chapters.These sub-chapters deal with such topics as: "Historical reality and cultural reality", "Archetypal features of the image of Fizuli", "The role of self-portrait and biography in creating a cultural portrait of the image of Fizuli", "Creative personality and artistic image in the literature of the peoples of the world."

The second chapter, entitled "The Image of Muhammed Fizuli as an Art Reflection of Azerbaijani Poetry," includes the following subchapters: "Autobiography in the Fizuli PoetryDivan", "Finding the Perfect Poet in a Lyrical Poem", "Original Image Traits in Associative Poetry" .

The study of the image of Fizuli in such genres as a romance, a novel, a story and a drama was conducted in the third chapter - "The image of Fizuli in drama and prose." The subchapter "The Philosophical Content of the Image in Artistic Prose" and the "Image and Its Place in Historical Dramaturgy" related to the third chapter are important for research. From the point of view of the psychological study of the image of Muhammed Fizuli, the chapter is important.

The "Conclusions" reflects the final provisions and summarizes the received scientific and theoretical suggestions and recommendations.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ ГЯНДЖАВИ**

*На правах рукописи*

**МЕХРИБАН ОКТАЙ кызы МОВЛАМОВА**

# ОБРАЗ МУХАММЕДА ФИЗУЛИ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

5716.01 – Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ – 2018**